*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 1, 2025, səh. 99-103*

https://doi.org/10.59849/2410-5600.2025.1.99

UOT: 82-3.512.162.

**Gülşən Rzayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: gulsen.rzayeva35@gmail.com*

# İSMAYIL BƏY QUTQAŞINLI İRSİNƏ MULTİDİSİPLİNAR BAXIŞ

**Xülasə**

İsmayıl bəy Qutqaşınlının yaradıcılığına multidisiplinar yanaşdığımız zaman onun əsərlərinin fərqli aspektlərdə daha geniş və daha dərin şəkildə təhlil edilməsinə imkan yaratmış oluruq. Qutqaşınlının əsərləri yalnız ədəbiyyatın deyil, tarix, dilçilik, fəlsəfə, sosial və siyasi məsələlərin işıqlandırılmasına xidmət edir. O, dövrün tarixi və mədəniyyətini, sosial dəyişikliklərini və əxlaqi məsələlərini ədəbiyyata daxil edərək, müxtəlif sahələrə fərdi baxışları ilə öz töhfəsini vermişdir. Əsərlərindəki dilin zənginliyi, fəlsəfi düşüncəsi və estetik dəyəri, kompleks bir yaradıcılıq nümayiş etdirdiyinin bariz nümunəsidir. Onun əsərlərinə multidisiplinar baxış həm xalqımızın tarixi təcrübəsinin, mifik görüşlərinin, dini inanclarının, estetik baxışlarının, həm də milli-mənəvi dəyərlərinin tədqiqi baxımından zəruridir.

***Açar sözlər:*** *İsmayıl bəy Qutqaşınlı, maarifçilik, multidisiplinar tədqiqat, yaradıcılıq*

## Giriş

*İsmayıl bəy Qutqaşınlı 1806-cı ildə Azərbaycanın Qutqaşen (indiki Qəbələ) bölgəsində anadan olmuşdur. Qutqaşınlı hərbçi ailəsində doğulmuş və gənc yaşlarında hərbi sahədə xidmət etmişdir. O, Rusiyanın Kazan şəhərində hərbi məktəbdə təhsil almış və daha sonra Rusiya ordusunda general rütbəsinə qədər yüksələrək, Qafqazda müxtəlif hərbi və inzibati vəzifələrdə çalışmışdır. İsmayıl bəy Qutqaşınlı 1869-cu ildə vəfat edib. Onun adı Azərbaycan ədəbiyyatında önəmli yer tutur və əsərləri bu gün də öz aktuallığı ilə oxucuların rəğbətini qazanır [1, s.8-9]*

*Qutqaşınlının yaradıcılığı Azərbaycan tarixinin müəyyən dövrünü və mədəniyyətini əks etdirir. O, müstəqillik hərəkatı, sosial dəyişikliklər və xalqın həyatına təsir edən digər mühüm hadisələrlə əlaqəli əsərlər yaratmışdır. Bu əsərlər yalnız ədəbiyyat və poeziya baxımından deyil, həm də tarixə işıq salan əhəmiyyətli mənbə kimi qiymətləndirilə bilər. Onun elmi-bədii irsini araşdırarkən yaşadığı dövrün siyasi və sosial şərtlərinin də nəzərə alınması olduqca vacibdir.*

*İsmayıl bəy haqqında ilk məlumat və ilk yazılar böyük mətnşünas Salman Mümtazın qələmindən çıxmışdır. Onun Əlyazmalar İnstitutunda Qutqaşınlıya dair iki çox dəyərli əlyazması saxlanılır. Bu əlyazmaların hər ikisi və 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Rəşid bəy və Səadət xanım" hekayəsi mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı" məqaləsi, həmçinin "Rəşid bəy və Səadət xanım"ın ilk tərcüməçisi Səlim bəy Behbudovun "Mütərcimdən" adlı əlyazması da qısaldılmadan bu nəşrə daxil edilib [8].*

*İsmayıl bəy Qutqaşınlının yaradıcılığı ədəbiyyat, tarix, coğrafiya və mədəniyyət sahələrini əhatə edən zəngin bir irsdir. Onun əsərlərinə multidisiplinar yanaşma Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafını daha dərindən anlamağa imkan verir.*

## Qutqaşınlı irsinə multidisiplinar baxış

30-cu-40-cı illərdə İ.Qutqaşınlı, A.Bakıxanov və M.Ş.Vazeh maarifçi-realist ədəbiyyatının ilk təməl daşlarını qoymaqla yanaşı, realizmin rüşeynmlərini yaradaraq ədəbiyyat tariximizdə ən faydalı işi görürdülər. Əlbəttə, onların simasında təzahür edən maarifçilik ibtidai və rüşeym halında idi. Maarifçilik sadəcə olaraq maarifə əhəmiyyət vermək və onun xalq kütlələri arasında yayılması üçün çalışmaqdan ibarət deyildir. Maarifçilik tarixi inkişafın müəyyən mərhələlərində yaranan və müəyyən siniflərin mənafeyinə xidmət edən siyasi və ictimai bir hərəkatdır. Bu hərəkatın məramnaməsində avam kütlələri maarifləndirmək və bu yolla onlara öz hüququnu başa salıb onları oyatmaq əsas yer tutur.

Qutqaşınlı yaradıcılığını nəzərdən keçirdiyimiz zaman, dilin incəliklərini və zənginliyini ustalıqla istifadə etdiyinin şahidi oluruq. Əsərlərindəki dil və üslub dövrün ənənələrini və milli xüsusiyyətləri özündə yaşatdığı kimi, ifadə tərzi ilə Azərbaycan dilinin zənginliyini bir daha təsdiqləmiş olur. Məhz bu baxımdan Qutqaşınlı yaradıcılığı dilçilik sahəsi üzrə geniş mülahizələrə səbəb olmuşdur.

İsmayıl bəy Qutqaşınlının əsərlərində fəlsəfi suallar və əxlaqi məsələlər böyük yer tutur. Onun yazılarında insanın varlığı, əxlaqı, sosial məsuliyyəti və vətənə olan bağlılığı barəsində dərindən düşünülmüş fikirlər yer alır. Multidisiplinar baxış açısından onu yalnız ədəbiyyatçı kimi deyil, həm də fəlsəfi düşüncə sahibi kimi izləmiş oluruq. Onun əsərlərindəki əxlaqi mesajlar, zamanın və məkanın sərhədlərini aşaraq günümüzə qədər aktuallığını qorumağa davam edir.

Qutqaşınlı "Rəşid bəy və Səadət xanım" adlı hekayəsi ilə Azərbaycan realist nəsrinin əsasını qoymuşdur. Əsər ilk dəfə 1835-ci ildə Varşavada fransız dilində nəşr olunmuş və iki gəncin məhəbbət hekayəsini təsvir etməklə o, dövrünün sosial və mədəni mühitini bütün gerçəkliyi ilə əks etdirmişdir [5, s.387]. Əsərin müxtəlif dillərə tərcüməsi, onun beynəlxalq ədəbi arenada tanınması, gözlənilmədən Şərq və Qərb mədəniyyətlərinin qarşılaşmasına, sevgi mövzusunun maarifçilik ideyaları əsasında işlənməsinə səbəb olmuşdur. Qutqaşınlının bu əsərinin uslubu və sujet quruluşu onu həm klassik Şərq ədəbiyyatından, həm də Avropa roman ənənəsindən bəhrələnən bir müəllif kimi xarakterizə edir.

İlk baxışdan fransız romantizmi ənənələrindən yararlandığı sanılan bu gözəl hekayə ədibin doğulduğu, yaşadığı, işlədiyi, formalaşdığı kübar mühitin sadə insanlara sevgisini əks etdirir. Kökü hissiyatçı Şərq ədəbiyyatından qidalanan "Rəşid bəy və Səadət xanım" qarşısına eləcə də Avropa oxucusuna Azərbaycan həyatını, məişətini tanıtmaq, milli psixologiyamızdakı müsbət keyfiyyətləri təbliğ etmək məqsədini qoymuşdur.

Maarifçilər insan şəxsiyyətinin rolunu və qiymətini onun dədə-babasının adı ilə deyil, öz şəxsi ağlı, biliyi və bacarığı ilə ölçürdülər. İsmayıl bəy Qutqaşınlı da "Rəşid bəy və Səadət xanım" hekayəsində qəhrəmanın şərafət və nəcibliyini onun öz hünər və fəaliyyətində gördüyü üçün, onu atasından daha qabiliyyətli və gözəl xasiyyətli hesab edir.

"Rəşid bəy və Səadət xanım"əsərində baş qəhrəmanlar yalnız kasıb-kusuba kömək etmək haqqında düşünürlər. Rəşid bəyin arzusu vardır: "bütün məşhur igidlərə qalib gəlmək və bütün zəiflərə, yoxsullara kömək etmək". O, vaxtını "par-par parlayan silahlar qurşayaraq, yurdunu çapıb-talayan və əkinçiləri incidən quldurlarla çarpışmada keçirərdi. Bəzən məhsuldar dağ yamaclarında ov edərək atını sürüb daim qar və buludlarla örtülü dağların başına, qalın meşələrə və çıxılmaz qayalara dırmaşar, orada quldurların ən gizli yuvalarını axtarıb tapar və onların zülmündən əkinçiləri xilas etmək üçün vuruşub, yuvalarını tarmar edərdi". Səadət xanım isə "yoxsul və dilənçilərin" pənahıydı. O, yoxsullara çoxlu sədəqə verərdi. Səadət xanımın yanına dilənçilərdən başqa kimsənin yolu yoxdur".

"Rəşid bəy və Səadət xanım" yazıldığı dövrün etnoqrafiyası haqqında da zəngin məlumat verir. XIX əsrin birinci yarısı Azərbaycan məişəti burada elə canlı, geniş və inandırıcılıqla təsvir olunmuşdur ki, ondan az qala tarixi bir sənəd kimi yararlanmaq mümkündür. İstər kübar cəmiyyətin, istərsə də "qara camaat"ın dolanışığı səciyyəvi çalarlarla, gizgilərlə rəssam zövqüylə işlənmişdir.

İsmayıl bəy Qutqaşınlı maarifçi olmaqla yanaşı, həm də tarixçi idi. O, Rusiya imperiyasının idarəçilik sistemində fəaliyyət göstərmiş və Qafqaz tarixi ilə bağlı müxtəlif məlumatlar toplamışdır.

Onun maarifçilik baxışları XVIII-XIX əsr Avropa və Rusiya maarifçilik ənənələrinin təsiri altında formalaşmışdır. O, fransız, rus və fars dillərini mükəmməl bilirdi və bu dillərdən tərcümələr edirdi.

Qutqaşınlı dövrünün maarifçi ziyalıları olan Mirzə Fətəli Axundzadə, Qasım bəy Zakir və Abbasqulu ağa Bakıxanov ilə də yaxın dostluq əlaqələri qurmuşdur. Bu şəxslər "Paqonlu maarifçilər" kimi tanınırdılar və Azərbaycan cəmiyyətinin maariflənməsi üçün mühüm işlər görmüşdülər. Onun əsərləri həmin dövrün sosial və mədəni dinamikasını, eləcə də cəmiyyətin inkişafına dair fikirlərini əks etdirir.

İsmayıl bəy Qutqaşınlının ikinci əsəri "Səfərnamə" yol qeydləridir. "Səfərnamə" təkcə "sıravi" oxuculara deyil, bir çox ixtisasdan olan elmi işçilərə də maraqlı faktlar verir. Ondan ədəbiyyatşünaslarla yanaşı coğrafiyaçılar, dilçilər, tarixçilər, etnoqraflar və başqaları da çoxlu yeni məlumatlar götürə bilərlər.

Qutqaşınlının bu əsəri ən ciddi elmi araşdırmaların mövzusudur. Çünki o, XIX əsr Azərbaycan elminin görkəmli nailiyyətlərindən biridir. Burada təkcə şəxsən İsmayıl bəy Qutqaşınlının həyatına deyil, Azərbaycan haqqında və Osmanlı imperiyasına daxil olan ərəb ölkələri haqqında oriental məlumatlar istənilən qədərdir. Onu da göstərək ki, Qutqaşınlının keçdiyi yolu düzgün müəyyənləşdirmək, vaxtilə Məkkəyə getmiş bir çox ədib və şairlərin, alimlərin həyatını öyrənməyə də yardım edə bilər, çünki onun keçdiyi yerlərdən başqalarının keçməsi nəinki mümkündür, əksinə, tam qanuna uyğundur. "Səfərnamə"də XIX əsr Azərbaycan ədəbi dilində işlək olan, mənası bu gün çətin anlaşılan sözlər vardır. Tərtibçinin hazırladığı lüğət həmin sözlərin mənasını başa düşməkdə oxuculara kömək edəcəkdir. Bundan başqa, gündəlikdə müəllifin özünün görüşdüyü, ya da haqqında başqasından eşitdiyi çoxlu adamların adları çəkilir. Həmin adamların şəxsiyyətini müəyyənləşdirmək üçün də tərtibçi bir sıra elmi qaynaqlara üz tutmuş, onlar haqqında geniş qeydlər vermişdir. Bu qeydlər tarixçilər üçün maraqlı göstəricidir [8].

Qutqaşınlı, "Miskin" təxəllüsü ilə şeirlər də yazmışdır. Lakin onun əlyazmaları 1930-cu illərdəki repressiyalar zamanı məhv edildiyindən, bu şeirlər günümüzə qədər tam şəkildə gəlib çatmamışdır. Bununla belə, bəzi mənbələrdə ona aid olduğu iddia edilən "İki quşun söhbəti" adlı bir şeiri mövcuddur [2, s.176].

İsmayıl bəy Qutqaşınlı əsərlərində həmçinin Cənubi Qafqazda təhsil, cəmiyyətin inkişafı və tərəqqi ideyalarının ön planda olduğunun daim şahidi oluruq. O, cəmiyyətin daha inkişaf etmiş təbəqələri ilə əlaqələr quraraq, öz fikirlərini yaymağa çalışırdı. Bu da onun dövrün qabaqcıl şəxsiyyətləri ilə əlaqəli olmasına səbəb olmuşdur. Onun dostları, əksərən təhsil və mədəniyyət sahəsində fəaliyyət göstərən, maarifçilik ideyalarına yaxın şəxslər olub. Təsadüfi deyildir ki, onun şəxsiyyəti haqqında ilk məlumatı verən Qasım bəy Zakir olmuşdur. Zakirin 1850-51-ci illərdə çar hakimləri tərəfindən təqib olunduğu zaman müraciət etdiyi yaxın dostları və müasirləri içərisində İsmayıl bəy Qutqaşınlının da adı vardır. Zakir mənzum bir məktubunda onu "Qutqaşın tərlanı", "Şəki şahbazı" və "Xələfi-Nəsrullah Soltan" deyə adlandırır [4, s.6]. Qasım bəy Zakirin mənzum məktubundan İsmayıl bəy Qutqaşınlının Qutqaşen zadəganlarından Nəsrullah Soltanın oğlu olduğunu, 50-ci illərdə onun Şamaxıda yaşadığını və Zakirin yaxın dostlarından biri olduğunu öyrənmiş oluruq.

Qutqaşınlı və Zakir dostluğu yalnız ədəbi mühitlə məhdudlaşmamış, eyni zamanda cəmiyyətin sosial inkişafına dair ortaq düşüncələrinin təkamülünə yol açmışdır. Qasım bəy Zakir və İsmayıl bəy Qutqaşınlı arasında olan dostluq dövrün maarifçi və ədəbi mühiti üçün əhəmiyyətli olmuş, onların qarşılıqlı əlaqələri Azərbaycan ədəbiyyatında böyük izlər buraxmışdır.

Şərq ədəbiyyatında, xüsusən Azərbaycan klassik ədəbiyyatında təbiət və insanın mənəvi dünyası çox önəmli yer tutur. İsmayıl bəy Qutqaşınlı yaradıcılığı bu ənənədən də yan keçməmiş, bunu öz əsərlərlərində davam etdirmiş, sevgi, mənəviyyat, əxlaq kimi mövzulara diqqət yetirmişdir.

Əsərlərində cəmiyyətin sosial strukturuna və ailə münasibətlərinə geniş yer vermiş, cəmiyyətdəki dəyişiklikləri aydın şəkildə göstərə bilmişdir. O, təhsilin və biliyin insan həyatındakı rolunu dəstəkləmiş,

elm və tərəqqi ideyalarını önə çəkmişdir. İnsanlar arasında bərabərlik və sosial ədalət anlayışları, fərdi hüquqlar, azadlıq məsələlərinə aid mövzular onun əsərlərində daim vurğulanmışdır.

Qutqaşınlı irsinə multidisiplinar baxış keçirdiyimiz zaman müəllifdə xüsusilə Fransız maarifçi realizminin izlərini müşahidə edirik. Heç təsadüfi deyildir ki, o, uzun müddət Rusiyada və Avropada yaşamış, Fransız dilini mükəmməl bilmiş və Qərb ədəbiyyatını dərindən öyrənmişdir. Məhz bu səbəbdən onun əsərlərindəki qəhrəmanlar savadlı, müasir dünyagörüşünə malik insanlar idi və Qərb ədəbiyyatının təsirinin yazıçıda buraxdığı izlər nəticəsində o, cəmiyyətin geriliklərini, cahilliyi və sosial ədalətsizliyi daim tənqid etmişdi.

Qutqaşınlı əsərlərində zorakı evliliklərə və qadınların öz talelər üzərində söz sahibi olmamalarına qarşı tənqidi münasibət sərgiləyir. O, qadınların yalnız ailə daxilində deyil, həyatda da fəal iştirak etməli olduğunu göstərərək, onların təhsilinin vacibliyini vurğulayır. Cəmiyyətin inkişafı üçün savadlı və azad qadınların yetişməsinin zəruriliyini vacib şərtlərdən biri hesab edir. İsmayıl bəy Qutqaşınlı dövrünün kişilərindən daha çox qadınların hüquqlarına həsas yanaşmış, onların cəmiyyətdəki mövqeyinin yaxşılaşmasını istəyən ideyalar irəli sürmüşdür [3, s.68]. Onun əsərləri bu baxımdan Azərbaycan ədəbiyyatında qadın məsələsinə erkən yanaşma nümunələrindən biri hesab edilə bilər.

Qutqaşınlı həmçinin tərcüməçilik fəaliyyəti ilə də Azərbaycan ədəbiyyatında yeni bir mərhələ açmışdır. O, Avropa sentimentalizmi və maarifçilik ideyalarını Azərbaycan oxucusuna tanıtmaq üçün rus və fransız ədəbiyyatından bəhrələnmişdir. Onun əsərlərində Avropa romanlarına xas olan psixoloji təsvirlər, fərdi azadlıq ideyası və cəmiyyətin tənqidi diqqət çəkir. Onun fəaliyyəti gələcək nəsil yazıçı və tərcüməçilər üçün örnək olmuş, Avropa və rus ədəbiyyatına marağın artmasına səbəb olmuşdur. Müəllifin yaradıcılığı Azərbaycan ədəbiyyatında tərcümə ənənələrinin formalaşmasına xidmət etmişdir.

İsmayıl bəy Qutqaşınlı Rusiya İmperiyasında xidmət etdiyi üçün [7] rus ədəbiyyatına və mədəniyyətinə yaxından bələd olmuşdur. O, rus maarifçilərinin fikirlərini öyrənmiş və onları Azərbaycan cəmiyyətinə tanıtmağa çalışmışdır. O, rus dilindən bir sıra bədii və publisistik materialları Azərbaycan dilinə uyğunlaşdırmış, bu yolla Avropa düşüncəsinin yayılmasına töhfə vermişdir.

## *Nəticə*

*İsmayıl bəy Qutqaşınlı yalnız maarifçi yazıçı deyil, həm də Azərbaycan ədəbi dilinin inkişafına töhfə vermiş bir dilçi idi. O, dilin sadələşdirilməsinə və xalqın başa düşəcəyi şəkildə formalaşmasına çalışmış, Azərbaycan nəsr dilinin əsasını qoymuşdur. Əsərlərində dilin sadəliyi, aydınlığı və xalqın geniş kütləsinə xitab etməsi onun dilçi yanaşmasının ən əsas xüsusiyyətlərindən biridir.*

*Azərbaycan dili və ədəbi nəsrinin inkişafı baxımından onun rolu böyükdür və Azərbaycan dilçiliyində xüsusi yer tutur.*

*Onun yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatının yeni dövrə keçidini təmin etmiş, maarifçilik və realizm ənənələrinin əsasını qoymuşdur. Məhz bu xüsusiyyətlərinə görə o, Azərbaycan ədəbiyyatı tarixində unudulmaz bir şəxsiyyət kimi qalır.*

## **Ədəbiyyat siyahısı:**

1. Azərbaycan ədəbiyyatı tarixi XIX əsr İsmayıl bəy Qutqaşınlı, Rəşid bəy və Səadət xanım/ - Bakı: - 1950. -474s.
2. Əsgərli, F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı / - Bakı: ADPU-nun nəşriyyatı, - 2009. - 435.
3. Qutqaşınlı Hacı İsmayıl bəy Əsərləri / tər.: Tahirzadə, Ə., - Bakı: - Lider nəşriyyatı. – 2005. – 224s.

4. Məmmədov, N. "Orijinal və maraqlı sima" İ. Qutqaşınlı haqqında // Ədəbiyyat və İncəsənət qəzeti. -1981. -s 6.
5. Salman Mümtaz. // Azəbaycan Ədəbiyyatının qaynaqları. // Avrasiya Press. - 2006. 384-401 s.
6. Tahirli, A. Generalın qayıdışı / - Bakı: Milli Kitabxana, - 2019. – s. 23.
7. Qaraoğlu, F. Tarixdə iz buraxanlar: İsmayıl bəy Qutqaşınlı / - URL [Elektron resurs] https://www.baki-xeber.com/siyaset/82535.html
8. Qəhrəmanov, C.V. Qutqaşınlı Hacı İsmayıl bəy (Ön söz) / - URL [Elektron resurs] https://kitabxana.net/files/books/file/1416546631.pdf

**Gulshen Rzayeva**

**A multidisciplinary look at the legacy of Ismail Bey Gutkashinli**

***Summary***

A multidisciplinary approach to the study of Ismail Bey Gutkashinli's work creates the possibility of a broader and deeper analysis of his works. Gutkashinli's works are devoted not only to literature, history, but also to linguistics, philosophy, social and political issues. His contribution to various fields of science, including literature, history and culture of that time, cannot be underestimated. His works are distinguished by the richness of language, philosophical thought and aesthetic value. A multidisciplinary look at the works of Ismail Bey Gutkashinli is necessary from the point of view of studying the historical experience of the Azerbaijani people, their religious beliefs, mythical and aesthetic views, as well as national and spiritual values.
***Keywords:*** *Ismail Bey Gutkashinli, creativity, multidisciplinary research, enlightenment*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent* ***Nailə Mustafayeva***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*